**Respublika.**-2024.-25 iyul.-№155.-S.5.

# COP29 çərçivəsində Bakının İrəvana tarixi jesti

**Prezidenti İlham Əliyev ötən il dekabrın 15-də ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a ev sahibliyi etməsi ilə əlaqədar müşavirə keçirib.**

**Jalə Qasimzadə**

Dövlət başçısı qeyd edib ki, ölkəmiz növbəti böyük uğura imza atıb, dünya ölkələri Azərbaycana etimad göstərərək beynəlxalq konfransın Bakıda keçirilməsini təsdiqləyib. Bu da təsadüfi deyil. Çünki hazırda iqlim dəyişmələrinin qarşısını almaq üçün planetin enerjiyə olan tələbatının ətraf mühitə zərər vurmadan ödənilməsi qlobal miqyasda ən aktual məsələlərdəndir.

Elə bu səbəbdən də dünya ölkələri karbon emissiyalarının azaldılmasına qarşı mübarizə aparır, "yaşıl enerji"yə keçidi sürətləndirmək üçün addımlar atırlar. Azərbaycanın da enerji təhlükəsizliyi sferasında uzunmüddətli hədəfləri var. Ölkənin yerləşdiyi əlverişli coğrafi mövqe bərpaolunan enerji mənbələrindən geniş şəkildə istifadə etməyə şərait yaradır. Rəsmi Bakı alternativ enerjiyə keçid prosesi üzrə Cənubi Qafqazda liderdir və bu istiqamətdə fəaliyyətini gün keçdikcə artırır. Belə ki, hazırda qlobal istixana effekti yaradan qazların emissiyalarının cəmi 0,15 faizi Azərbaycanın payına düşür. Bununla belə, hədəf 2030-cu ilə qədər istixana effekti yaradan qazların emissiyalarını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmaqdır. Buna bariz nümunə kimi azad edilmiş ərazilərdə postmüharibə dövründə həyata keçirilən genişmiqyaslı bərpa işlərini göstərmək olar. Bura "yaşıl enerji" zonası, təmiz nəqliyyat, "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar, eləcə də minlərlə hektar sahədə meşələrin bərpası daxildir. İcra olunan bütün bu layihələr, ölkə rəhbərliyinin imzaladığı strateji sənədlər, 2030-cu ilə qədər nəzərdə tutulan və yaxın gələcək üçün dövlət tərəfindən qəbul edilən milli prioritetlər onu deməyə əsas verir ki, Azərbaycanın bu sahədə dünyaya nümayiş etdirəcəyi çox şey var. Bütün bunların fonunda da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına Azərbaycanın ev sahibliyi etməsi olduqca məntiqli görünür.

Noyabrın 11-dən 22-dək Bakı dünyanı narahat edən iqlim məsələlərinin həll olunduğu qlobal mərkəzə çevriləcək. COP29-un ölkəmizdə keçirilməsindən danışarkən bir məsələni də xüsusilə vurğulamaq lazımdır. Belə ki, ötən ilin dekabrında Azərbaycan və Ermənistan Sovet İttifaqı dağılandan və Qarabağ münaqişəsi başlayandan bəri ilk dəfə birgə bəyanat imzalayıb. Əsirlərin dəyişdirilməsini ehtiva edən sənəddə deyilirdi ki, xoş niyyətin təzahürü olaraq, Ermənistan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına ev sahibliyinə öz namizədliyini geri götürür və Azərbaycan Respublikasının namizədliyini dəstəkləyir. Bunun fonunda uzun müddətdir rəsmi Bakının da İrəvanı sözügedən tədbirə dəvət edəcəyi məsələsi müzakirə olunur. Yəni Azərbaycan tərəfinin Ermənistanı COP29-a dəvət etməsi gözlənilən addım idi. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev 2-ci Şuşa Qlobal Media Forumunda çıxışı zamanı bildirdi ki, Azərbaycan Ermənistanı COP29 iqlim sammitinə dəvət edib. O qeyd edib ki, dəvət qərarı hələ də diplomatik əlaqələri olmayan rəsmi Bakı ilə İrəvan arasında onilliklər boyu davam edən münaqişəyə son qoymaq məqsədi daşıyan sülh prosesi fonunda verilib. Dövlət rəsmisi bildirib ki, bu, Azərbaycanın xoşməramlı iradəsinin və inklüziv yanaşmasının göstəricisidir və indi Paşinyan hökumətinin qərarvermə vaxtıdır.

Belə bir sual yaranır, görəsən, İrəvan rəsmiləri Bakıdakı tədbirə gələcəklərmi?! Hələ də Ermənistan rəsmi qaydada bu məsələyə aydınlıq gətirməyib. Amma İrəvanda nəşr olunan "Hraparak" qəzeti baş nazir Nikol Paşinyanın noyabr ayında Bakıda keçiriləcək COP29 konfrasında iştirak edib-etməyəcəyi barədə məqalə dərc edib. Yazıda bildirilib ki, mətbuat orqanı tərəfindən Ermənistan hökumətinin informasiya və ictimaiyyətlə əlaqələr şöbəsinə sorğu göndərilib. Oradan verilən məlumatda bildirilib ki, hazırda məzuniyyətdə olan Nikol Paşinyan məzuniyyətdən qayıtdıqdan sonra yəni avqustda mətbuat konfransı keçirəcək və COP29 sammitində iştirakla bağlı qərarını açıqlayacaq.

Burada bir məsələyə aydınlıq gətirmək lazımdır. Ermənistan nümayəndələri müxtəlif dövrlərdə Bakıya səfərlər edib, beynəlxalq miqyaslı tədbir və toplantılarda iştirak ediblər. Ermənistanın baş naziri Nikol Paşinyanın və ya Xarici İşlər naziri Ararat Mirzoyanın tədbirə qatılmasıyla aydın olacaq ki, Bakı və İrəvan arasında sülh gündəliyi üzrə müəyyən razılaşmalar əldə olunub, Paşinyan Administrasiyası prosesi yekunlaşdırmaq, müqaviləyə imza atmaq istəyir. Sülh təşəbbüsləri çərçivəsində baş tutan səfər tərəflər arasında dialoqun qurulmasına kömək edə bilər. İndiki məqamda İrəvanın siyasi elitasının qarşısında hər hansı bir maneə yoxdur. Çünki Azərbaycanda keçiriləcək beynəlxalq miqyaslı tədbirdə Ermənistan rəsmilərinin təhlükəsizliyi ən yüksək səviyyədə qorunacaq. Ona görə də, əgər rəsmi İrəvan regional sülhə sadiqdirsə, o zaman Bakının dəvətini qəbul etməli və göstərilən inklüziv yanaşmaya uyğun davranış sərgiləməlidir. Rəsmi İrəvan anlamalıdır ki, iqlim problemi qlobal miqyasda hər ölkənin problemidir.